*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 may 2020-ci il № 31 (2449) Qiymәti 30 qəpik


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 may 2020-ci il

## Qoşunlar təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər



Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi nüfuz və güc sahibi olmaqla yanaşı, hərbi müstəvidə də əsas söz sahibidir. Tək silahlanma sahəsində deyil, mənəvi-psixoloji hazırlıq cəhətdən, peşəkarlıq və təminat-təchizat baxımından da ordumuz güclülər sırasındadır. Bu gün silahlanma sahəsində qarşıda duran əsas vəzifələrdən biri Azərbaycan Ordusunun daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir.

Son illər keçirilən hərbi təlimlər də Azərbaycan Ordusunun güc və qüdrətini, eyni zamanda, modernləşdiyini nümayiş etdirir. Bu təlimlər həm də xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının təntənəsi və gözəl nümunəsidir. Çünki Azərbaycan Ordusunun qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının davam etdirilməsi deməkdir.

**(Ardı 3-cü səhifədə)**

## Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Milli-mənəvi dəyərlərimiz, dövlətçilik ənənələrimiz tarixin ən sərt dönəmlərində də qorunub saxlanılmışdır. Xalqımız digər milli, dini bayramlar kimi müqəddəs Ramazan bayramını da həmişə böyük istək və sevgi ilə qeyd edir. Xeyirxah əməllər naminə birliyə, qardaşlıq və bərabərliyə çağıran, mənəvi saflığa, dostluğa, həmrəyliyə söykənən, ailələrə sevinc, məhəbbət və şadlıq gətirən Ramazan bayramı sülhün, əmin-amanlığın təzahürüdür.

Azərbaycan müstəqilliyə yenidən nail olduqdan sonra, bərpa edilən dövlətçiliyimiz xalqa öz bayramlarını təmtəraqla qeyd etməyə imkan yaratdı. Xalqın təkidli xahişi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində ölkəmiz ictimai-siyasi böhrandan, xaosdan xilas oldu və respublikamızın hərtərəfli inkişafı istiqamətində dönüş yarandı.

Böyük tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan beynəlxalq layihələr Azərbaycanın iqtisadi qüdrətinin yüksəldilməsində mühüm rol oynadı.

Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını, dönməzliyini sübut edən ümummilli lider Heydər Əliyevin prinsipial və dönməz siyasəti ölkənin ordu quruculuğuna da əvəzsiz töhfələr verdi. Müstəqilliyimizin, dövlətçiliyimizin dayağı və qarantı olan müasir Azərbaycan Ordusunun banisi ulu öndər Heydər Əliyevin başladığı ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, nizami ordumuzun hərbi qüdrəti gündən-günə artır.

Bu bayram günlərində şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları təbrik edirəm.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV,**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Cəbhəboyu zonada yeni inşa edilmiş hərbi hissələrin açılışı və tikintisi davam etdirilən obyektlərə baxış keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yeni inşa edilmiş hərbi hissələrin açılışında iştirak edib və tikintisi davam etdirilən obyektlərə baxış keçirib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, istifadəyə verilən qərargah binaları, əsgər yataqxanaları və yeməkxanalar, tibb məntəqələri, idman şəhərcikləri, sıra meydanları, döyüş texnikaları üçün saxlanclara baxış keçirilib.

Bildirilib ki, İP mühafizə və İP video-müşahidə sistemləri, yanğın əleyhinə siqnalizasiya və daxili rabitə sistemləri quraşdırılmış qərargah binaları tam şəkildə mebel və avadanlıqlarla təchiz edilib. Qərargah binalarında ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları istifadəyə verilib.

Ərazidə inşa olunan yataqxana binaları da mebel və inventarlarla təmin edilib. Burada iş, məişət və digər xidməti otaqlar istifadəyə verilib. Binada yanğından mühafizə və daxili rabitə sistemləri quraşdırılıb.

Hərbi hissənin ərazisindəki tibb məntəqələri müasir standartlara cavab verən tibbi avadanlıqlarla təmin olunub.

Şəxsi heyətin rahat və keyfiyyətli qidalanmasının təşkili məqsədilə inşa edilmiş geniş yeməkxanalar lazımi avadanlıqlarla təchiz edilib.

Hərbi hissələrdə inşa edilən ərzaq anbarlarında soyuducu kamera və digər ərzaq saxlama otaqları, əşya anbarında isə əmlak saxlama otaqları mövcuddur. Ərazidə yaşıllıq zolaqları salınıb, müxtəlif növ ağaclar, dekorativ kollar əkilib, yollara asfalt salınıb, qaz və yüksək gərginlikli elektrik xətləri çəkilib.

Qeyd edək ki, Azərbaycan Ordusunun sərəncamında olan hərbi obyektlərdə tikinti, yenidənqurma, təmir işlərinin 90 faizi artıq başa çatdırılıb və növbəti illərdə bu işlərin tam yekunlaşdırılması planlaşdırılır. Bildirilib ki, hərbi qulluqçular və onların ailə üzvləri üçün nəzərdə tutulan yataqxanaların tikintisi davam etdirilir və Ali Baş Komandanın tapşırığına əsasən bu istiqamətdə işlər bundan sonra da həyata keçiriləcək.

Burada yaradılan şəraitlə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

*Gənc zabitlərimiz*

# Böyük Qələbə günü uzaqda deyil!

*Baş leytenant Elgün İsmayılovla "N" hərbi hissəsində tanış olduq. Elgün Gəncə Aqrar Universitetində ali təhsil aldıqdan sonra hərbi xidmətə yollanıb. Uşaqlıqdan Vətən sevgisi ilə böyüyən gənc zabit hərbi xidmət müddətində öz arzusu ilə "Ehtiyat zabit hazırlığı" kursuna müraciət edərək kursa qəbul olunur.*



"Bu gün qürur duyuram ki, müstəqil dövlətimizin qüdrətli ordusunun zabitiyəm", - deyə zabit söhbətə başladı. - Harada təhsil almağımızdan asılı olmayaraq ordumuzun inkişafına xidmət etmək vəzifə borcumuzdur. Ordumuzun gücü bütün dünyaya və mənfur qonşumuza da bəllidir. Vətənə xidmət etmək hamımızın vətəndaşlıq borcudur. Torpaqlarımızın bir hissəsinin düşmən tapdağında olduğu vaxtda Vətən bizdən daha böyük hünər gözləyir. Bu gün mən də qanım və canım bahasına olsa belə, Vətənimi qorumağa, onun ərazi bütövlüyü uğrunda vuruşmağa hazıram.

Gənc zabit bildirdi ki, tabeliyindəki şəxsi heyətə qarşı son dərəcə tələbkar və qayğıkeşdir. Onların təlim-tərbiyəsi ilə məşğul olur, vaxtaşırı fərdi söhbət aparır, problemləri ilə maraqlanır. Əsgərlərin heç bir probleminin olmaması üçün onlara lazımi diqqət və qayğı göstərir. "İlk növbədə, komandir mövcud olduğu kollektivdə dost olmağı bacarmalıdır. Əsgərlərinə bərabər şəkildə qayğı göstərməli, sevgi aşılamalıdır ki, onun hər bir tapşırığı səylə yerinə yetirilsin. Əsgərə qayğı göstərsən, düz yönləndirsən, onun hərbi təlim-tərbiyəsi ilə məşğul olsan, o əsgər tam hazırlıqlı əsgər olacaq. Tabeliyimdə xidmət edən bütün əsgərlər xidmətə həvəslə yanaşır, yüksək bacarıq nümayiş etdirir, verilən tapşırıqların öhdəsindən uğurla gəlirlər. Mən də onların bu çalışqanlığını görəndə seçdiyim peşəmlə fərəhlənirəm. Bu gün tabeliyimdə olan əsgərin əldə etdiyi uğur mənim, o cümlədən ordumuzun əldə etdiyi uğurdur. Bu uğurun nəticəsidir ki, Azərbaycan Ordusu Aprel zəfərini qazandı. Aprel döyüşləri ordumuzun tarixinə qızıl hərflərlə yazıldı. Həmin döyüşlər xalq-ordu münasibətlərini bir qədər də yaxınlaşdırdı, orduya olan inamı daha da artırdı. Bu gün Azərbaycan Ordusunun şəxsi heyəti istənilən şəraitdə, istənilən relyefdə düşmənlə mübarizə aparmaq gücündədir. Bir hərbçi kimi mən də həmişə çalışıram ki, qüdrətli dövlətimizə layiqli zabit olum. Arzumdur ki, Qarabağımızı düşmən tapdağından azad edənlərin sırasında mən də olum."

Ordumuzun gücünü, döyüş qabiliyyətini görmək, ordu sıralarında xidmət edən bu cür savadlı, cəsur, şücaəti və qorxmazlığı ilə seçilən komandirlərimizi tanımaq hər birimizi qürurlandırır. Onların vətənpərvərliyi və peşəkarlığı bizləri əmin edir ki, ordumuz ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Ordumuzun bizə Böyük Qələbəni bəxş edəcəyi gün uzaqda deyil!..

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi davam edir



Naxçıvan Qarnizonu Qoşunlarında ərazidə iki tərəfli komanda-qərargah təlimi davam edir. Təlimin rəhbəri, Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev tərəfindən təlimə əlavə qüvvələrin cəlb edilməsi ilə əməliyyat şəraiti qərargahlar üçün daha da mürəkkəbləşdirilib.

Komanda məntəqələri arasında informasiya mübadiləsinin bütün növ rabitə vasitələrinin kompleks tətbiqi ilə təmin edildiyi təlimdə rabitə vasitələrinin aktiv radioelektron mübarizə şəraitində istismarı sınaqdan keçirilir.

Qarşı qərargahlar tərəfindən qəbul edilmiş qərarlara uyğun olaraq ümumqoşun, raket-artilleriya, hava hücumundan müdafiə və digər qoşun növü bölmələri yerdəyişməni, kəşfiyyat və xüsusi təyinatlı bölmələr isə cəmləşmə və açılma rayonlarında diversiya-təxribat xarakterli fəaliyyətləri icra edirlər.

Güc və qüvvələrin bir istiqamətdən digərinə köçürülməsi zamanı qoşunların təhlükəsiz hərəkəti komendant xidməti tərəfindən təmin edilir, bölmələrin manevretmə qabiliyyətləri və aparılan hesabatların reallığı yoxlanılır.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Qoşunlar təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər

**(Əvvəli 1-ci səhifədə)**

Peşəkarlığın əldə olunmasında mütəmadi keçirilən hərbi təlimlərin rolu danılmazdır. Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda, təlimlər zamanı qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, həmçinin maddi-texniki təminat məsələləri də yoxlanılır. Bütün bunlar silahlı münaqişədə zəfər üçün zəruridir və buna görə də uğurlu təlimlər hərbi əməliyyatların başlanması və keçirilməsinin əsl qabiliyyətini göstərir.



Bu günlərdə qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başladı.

Təlimlərdə döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanıldı.

Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu, cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olundu.

Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhə bölgəsində olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti səhra şəraitində ərazidə açılmış komanda idarəetmə məntəqəsində oldular.

Qoşunların döyüş fəaliyyətinin təşkilini yoxladıqdan sonra Müdafiə naziri əməliyyatların planlaşdırılması, təminat, döyüşü idarəetmə, artilleriya, kəşfiyyat, hava hücumundan müdafiə və digər qoşun növlərinin idarəetmə qruplarına baş çəkib, idarəetmə orqanlarının fəaliyyəti ilə bağlı müvafiq göstərişlər verib.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissələrdəki hərbi texnikanın döyüş qabiliyyətini yoxlayıb. General-polkovnik Zakir Həsənov Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və müvafiq tapşırıqlar verib.

Ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçuların xidməti, məişət şəraiti ilə maraqlanan Müdafiə naziri onlarla çay süfrəsi arxasında söhbət aparıb.

Əməliyyat-taktiki təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri müxtəlif hündürlüklərdə kəşfiyyat apararaq əldə edilən məlumatları idarəetmə məntəqələrinə ötürüblər.

PUA heyətləri, həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkar edilməsi və müvafiq məlumatların artilleriya bölmələrinin atəşin idarə edilməsi məntəqəsinə göndərilməsi üzrə tapşırıqları icra ediblər. Bu, artilleriyanın tətbiqinin nəticələrini müşahidə və lazımi düzəliş verməyə imkan verir.



Tapşırıqların icrası zamanı ərazinin optik və radioelektron kəşfiyyatının aparılması üçün nəzərdə tutulmuş PUA-lardan istifadə olunub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı əməliyyat-taktiki təlimlərində qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin qəbul edilən qərarlara dair məruzələrini dinləyib. Nazir təlimdə iştirak edən qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə cəlb edilən qüvvə və vasitələrin ərazilərdə yerləşməsi başa çatıb. İdarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarında açılması, eləcə də raket və zenit artilleriya komplekslərinin ehtiyat atəş və start mövqelərini tutması başa çatdırılıb.



Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində Hava Hücumundan Müdafiə (HHM) bölmələri yaşayış məntəqələrinin, müxtəlif təyinatlı obyektlərin və canlı qüvvənin şərti düşmənin hava hücumu vasitələrindən müdafiəsi üzrə təlim-döyüş tapşırıqlarının icrası məqsədilə yürüş edərək mövqe rayonlarını tutublar.

HHM-in döyüş heyətləri, həmçinin təlimə cəlb olunan şəxsi heyət və döyüş texnikasının düşmənin aviasiya vasitələrinin atəş zərbələrindən müdafiəsini təmin ediblər.

Qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub.

Təlimlər çərçivəsində qoşunların əməliyyat təyinatı rayonlarında gecə vaxtı yerdəyişməsi icra olunub.

Qoşunlar qarşıya qoyulmuş təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 may 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***22 may 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

## XİN: qondarma "andiçmə" şousu Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir

Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı Ermənistanın təşkil etdiyi qeyri-qanuni "seçkilər" və qondarma "andiçmə" şousu Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə ziddiyyət təşkil edən və müvafiq olaraq, beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə rədd edilən qondarma "seçkilərin" nəticələrinin hər hansı bir hüquqi qüvvəsi yoxdur və ola da bilməz. Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş separatçı rejim təcavüzkar Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni güc tətbiqi, ərazilərinin beşdəbirinin işğalı, qanlı etnik təmizləmə və yüz minlərlə məcburi köçkünün fundamental hüquqlarının pozulmasının nəticəsidir.

Azərbaycan xalqının tarixi-mədəni irsində xüsusi əhəmiyyəti olan Şuşa şəhərində "andiçmə" adı altında təşkil edilən bu təxribatda təcavüzkar Ermənistanın baş nazirinin iştirakı, özünü "demokrat" kimi təqdim edən birinin demokratiya anlayışına qara ləkə sürməsindən başqa bir şey deyildir.

Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının hərbi işğalının davam etdiyi və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin zor gücünə didərgin salınaraq seçki hüquqlarından məhrum edildiyi bir şəraitdə hər hansı "seçki" və ya "andiçmədən" danışmaq hüquqa zidd olduğu qədər, heç bir sağlam məntiqə sığmır və bəlaliklə də hamılıqla pislənir və rədd edilir.

Müharibə hələ bitməyib və Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpasını bütün mümkün vasitələrlə təmin etmək hüququna malikdir. Ermənistan rəhbərliyinin bu kimi təxribatçı fəaliyyəti münaqişənin sülh yolu ilə həlli cəhdlərini demək olar ki, heçə endirməklə, bölgədə gələcək hərbi qarşıdurmanın və gərginliyin artmasına xidmət edir. Heç kəs şübhə etməsin ki, işğal olunmuş ərazilərimiz işğaldan azad olunacaq, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və məcburi köçkünlərin fundamental hüquqları təmin ediləcək".

AZƏRBAYCAN ORDUSU

*28 May Respublika Günüdür*

# 28 mayın işığı heç zaman sönməyəcək!

*Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə həmişə ehtiramla anılıb.*



Ulu öndər Heydər Əliyev Azərbaycan Demokratik Respublikasını həmişə xüsusi qürurla, sevgilərlə xatırlayırdı, onu gənclərə dövlətçilik tariximizin şanlı səhifəsi kimi sevməyi tövsiyə edirdi. Biz gənclər böyük tarixi şəxsiyyətin bütün kəlamlarını həyat amalımız, yaşam fəlsəfəmiz bilmişik. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dövlətçilik tariximizə ehtiram kimi Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tariximizin dəyərli səhifəsi bildi, onun 100 illiyinin təntənə ilə qeyd edilməsi, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamlar verdi...

Biz gənclər müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Demokratik Respublikası haqqında materialları təkcə maraq üçün deyil, həm də vətəndaş sevgisiylə oxumuşuq, onun tarixini belə bir sevgi ilə öyrənmişik.

Azərbaycan Demokratik Respublikası dünyəvi dövlət idi. Dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanınan bu gənc dövlət mövcud olduğu 23 ay müddətində çox şeyə nail oldu. Xalq dövlətini sevdi, onun yaşamı üçün mübarizə apardı. Gənclər yaradılan ordunun sıralarına böyük həvəslə gedirdi. Onlara hərbi biliklər, hərbi vərdişlər aşılanması çətinlikləri də vardı və bu çətinliklərin aradan qaldırılması üçün hərbi məktəb yaradıldı. Azərbaycan dili dövlət dili elan edildi. Hərbiyyə naziri tam artilleriya generalı S.Mehmandarovun müvafiq əmriylə orduda da danışıq dili Azərbaycan dili oldu. Bu, mükəmməl təhsili olmayan azərbaycanlı gənclərin hərbi vərdişləri, davranışları mənimsəməsini, bu və ya digər silahın istismar xüsusiyyətlərini öyrənməsini asanlaşdırırdı. Azərbaycan Ordusu az müddətdə həm yaradıldı, həm də formalaşmağa başladı...

28 may tarixi gündür. Biz gənclər bu tarixi günün qürurunu böyük vətəndaşlıq məsuliyyətiylə yaşadırıq. Əminik və inanırıq ki, Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmriylə Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müasir Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəkdir.

28 may gününün dövlətçilik işığını müasir Azərbaycan əbədiyyən sönməyə qoymayacaqdır!..

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil Azərbaycan Respublikasının qurulmasında əsas rol oynadı. 1918-ci il 26 mayda Tiflisdə Zaqafqaziya seyminin son iclası keçirildi. Səhəri gün Azərbaycanın müvəqqəti Milli Şurası yaradıldı. M.Ə.Rəsulzadə 44 nəfərdən ibarət Milli Şuranın sədri seçildi. 28 mayda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması rəsmən elan edildi.

Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq dövründə zaman üçün böyük əhəmiyyətli işlər gördü. 21 iyunda M.Ə.Rəsulzadənin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qırmızı ay-ulduzlu, sonra 9 noyabr, indiki üçrəngli bayrağı qəbul edildi, Bakıda ilk hərbi paradın keçirilməsi, türk dilinin dövlət dili elan olunması, hərbi donanmanın, Hərbi Nazirlik tərkibində sərhəd qoşunlarının yaradılması və bu kimi digər önəmli qərarlar verildi.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunda əsas problemlərdən biri də dil məsələsi idi. Milli zabit kadrlarının olmaması orduya qeyri-azərbaycanlı zabitlərin cəlb olunmasını labüd edirdi ki, bu da zərərsiz ötüşmürdü. Dövlət dilinin qəbul edilməsindən sonra ordu quruculuğunda buna daha çox diqqət ayrılmağa başlanıldı. Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi naziri Səməd bəy Mehmandarov orduda Azərbaycan dilinin rəsmi dilə çevrilməsinin tərəfdarı idi.

Dekabrın 27-də S.Mehmandarovun imzaladığı 37 nömrəli əmrdə hərbçilər arasında salamlaşmanın Azərbaycan dilində aparılması tələb olunurdu. Hərbçi salamlaşma zamanı "salam" deməli, cavabında "əleyküm salam" eşitməli idi. Əsgər təriflənərkən və ya ona təşəkkür bildirilərkən "mərhaba" deyilməli, əsgər cavabında "çox sağ ol" deməli idi.

Belə qərarlar Azərbaycan dilinin işləkliyini təmin edən tədbirlərdən idi. Müstəqil Azərbaycanın yaradılmasında Əlimərdan bəy Topçubaşovun, Ceyhun Hacıbəylinin, Məhəmmədhəsən Hacınskinin, Əhməd bəy Ağayevin və başqalarının böyük fəaliyyəti olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin sürətli inkişafı və dövlət olaraq formalaşması Moskvanı narahat edirdi. Lenin deyirdi: "Bakını almaq olduqca zəruridir". Sovet ordusu 1920-ci ilin aprelində artıq Dağıstanda idi, ermənilər Azərbaycanın qərb bölgələrində üsyana qalxmışdı. Bununla bağlı milli ordunun böyük hissəsi bu regionlara göndərilirdi. Vəziyyətdən istifadə edən XI Qızıl Ordu Bakıya daxil oldu, bununla da bolşeviklər hakimiyyətə gəldi.

Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsi müstəqil Azərbaycana çox şey qazandırdı. Yolumuz 28 maydan doğan günəşin nurunda formalaşdı. Azərbaycan Ordusu Cümhuriyyət Ordusunun layiqli davamçısıdır. M.K.Atatürk deyirdi: "Bir ölkənin ordusu nə qədər güclü olursa-olsun, qazandığı zəfərlər nə qədər parlaq olursa-olsun, bir ölkə elm ordusuna sahib deyilsə, hərb meydanında qazandığı zəfərlərin sonu olacaqdır". Ulu öndər Heydər Əliyev deyirdi: "Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətlərinizi layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır." Azərbaycan Ordusunun şəxsi heyəti qürurla deyir: "Azərbaycan Ordusuna xidmət edirəm!"

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

Dövlətçilik tariximizin ən dəyərli günlərindən biri orta məktəbdə oxuyanda 28 mayın təntənəylə qeyd edildiyini görürdüm. Atamdan bu günün hansı səbəblərə görə bu qədər dəyərli gün olduğunu soruşdum. Atam mənə xalqımızın müstəqillik mübarizəsindən danışdı, müsəlman şərqində ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikasının necə yaranmasından, bu mübarizəni aparanlardan, çətinliklərdən danışdı. Onda atamın sevinci, atamın qüruru mənə bir həqiqəti anlatdı: əsl vətəndaş xalqını, dövlətçiliyini sevməlidir. Mən sonralar da, indi də dövlətçilik tariximizdə olduqca əhəmiyyətli olan Azərbaycan Demokratik Respublikası haqqında daha ətraflı məlumatlar öyrəndim.

Qısa müddətdə dünyanın neçə-neçə dövləti tərəfindən rəsmən tanınan Azərbaycan Demokratik Respublikası özünün ordusunu yaratdı, Hərbiyyə Nazirliyi təsis edildi. Bu, dövlətin qorunması və dövlətçiliyin möhkəmləndirilməsi demək idi. Bu ordu qısa müddətdə nizami ordu kimi formalaşmağa başladı. Tam artilleriya generalı S.Mehmandarovun, tam artilleriya generalı Ə.Şıxlinskinin rəhbərliyi ilə ordu mərhələlərlə inkişaf etdirilməyə başladı. Müasir Azərbaycan Respublikası Azərbaycan Demokratik Respublikasının varisi olduğu kimi, bugünkü ordu da ADR ordusunun varisidir. Azərbaycan Respublikasının dövlət bayrağı da, gerbi də, himni də sələfi olduğu ADR-in dövlət bayrağıdı, gerbidi, himnidi.

Azərbaycan Demokratik Respublikası dövründə təhsilə də xüsusi diqqət yetirilirdi. Dövlət bu istiqamətdə kifayət qədər genişmiqyaslı və gərəkli qərarlar qəbul etdi. Həmin dövrdə bəzi xarici dövlətlərin universitetlərində təhsil almağa göndərildi. Onlar Vətənə ADR-in süqutundan, daha doğrusu, rus imperiyasının ilhaqından sonra qayıtsalar da, Azərbaycan naminə fəaliyyət göstərdilər və gizlin də olsa müstəqillik mübarizəsi aparanların sırasında oldular...

Azərbaycan Demokratik Respublikası dövründə hərbi təhsilin də təşkilinə başlanıldı. Bu, bilavasitə ordu quruculuğunun tərkib hissəsi oldu...

ADR-in ilhaq edilməsi xalqın mübarizə əzminə, ruhunun dönməzliyinə təsir göstərə bilməzdi. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda xalq dövlətçiliyi naminə mübarizəsini davam etdirdi, inandı ki, yenə müstəqil dövlətçiliyə malik olacağıq. Hamı əmin idi ki, ADR-in dövlət bayrağı yenə dalğalanacaq, Məmməd Əmin Rəsulzadənin dediyi kimi, bir daha enməyəcək...

28 mayı dövlətçilik tariximizin ən dəyərli günlərindən biri kimi yaşayırıq, yaşadırıq...

**Gülsurə HÜSEYNOVA,**
**Silahlı Qüvvələrin**
**Hərbi Akademiyası**

# Niderland və Belçikadakı diaspor üzvlərimiz qondarma rejimə etiraz bəyanatını Avropa təşkilatlarına göndəriblər

Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılan qondarma quruma qeyri-qanuni "seçkilər" keçirilməsi və Şuşada "andiçmə" mərasimi beynəlxalq hüquqa, bölgədə sülhə və sabitliyə qarşı təhdid, Azərbaycana qarşı təxribatdır.

AZƏRTAC xəbər verir ki, bu fikir Avropa Azərbaycanlıları Konqresi və Niderland və Belçika Azərbaycanlıları Koordinasiyası Şurasının Avropa Parlamentinə, Avropa İnsan Hüquqları Məhkəməsinə, Avropa Parlamentinin İnsan Hüquqları Komissiyası və Niderland Parlamentinə ünvanlandığı bəyanatda yer alıb.

Erməni separatçılarının çirkin əməllərinə etiraz bəyanatında vurğulanıb ki, Qarabağ Azərbaycandır. Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar bu "seçki" şousunu pisləyərək, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, qondarma Dağlıq Qarabağ Respublikasını və orada keçirilmiş "seçkiləri" tanımadıqlarını bəyan edib. Dünyanın bir çox dövlətləri, eləcə də Avropa İttifaqı, ATƏT, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası, GUAM, Avropa Parlamenti, TÜRKPA kimi beynəlxalq təşkilatlar, nüfuzlu KİV-lər, eləcə də görkəmli şəxsiyyətlər bu "seçkiləri" məqsədli təxribat, Qafqazda sülhə, sabitliyə qarşı məsuliyyətsiz siyasi addım, münaqişənin sülh yolu ilə nizamlanmasına qarşı ciddi əngəl, beynəlxalq hüquq normalarına təhdid kimi dəyərləndirirlər. Bu qondarma "seçkilərin" və onların "nəticələrinin" qanunsuz olduğunu bəyan ediblər. Ermənistan rəhbərliyi və erməni lobbisi tərəfindən dəstək görən, heç bir beynəlxalq təşkilat və ölkə tərəfindən tanınmayan işğalçı rejim və onun burada təşkil etdiyi qondarma "seçkilər" beynəlxalq hüquqa ziddir.

Qeyd edilib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlara böyük zərbə olan bu addım, qarşı tərəfin əsl niyyətini üzə çıxararaq məsələnin həllində maraqlı olmadığını bir daha göstərir. Qanunsuz parlament tərəfindən saxta seçkilərin keçirilməsi Ermənistanın sülh danışıqlarında beynəlxalq ictimaiyyəti aldatmağa cəhd göstərdiyini sübut edir. Bu səbəbdən dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar Ermənistana qarşı daha ciddi təzyiq və sanksiyalar tətbiq etməklə onu beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa məcbur etməlidir.

Bəyanatda vurğulanıb ki, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazilərində saxta prezident seçkisinin keçirilməsi və "andiçmə" mərasiminin təşkili yolverilməzdir. Avropada yaşayan azərbaycanlılar bunu Azərbaycan işğal olunmuş torpaqlarında, başda Xocalı faciəsi olmaqla, dinc insanların qatili olan separatçı rejimin və işğalçı Ermənistanın cinayətkar fəaliyyətlərinin davamı kimi qiymətləndirərək, bu təxribatçı, eləcə də cinayətkar əməlləri kəskin şəkildə pisləyir.

Diaspor üzvlərimiz separatçı rejimin saxta prezidentinin "andiçmə" mərasiminin qarşısının alınması və Ermənistanın bu cinayətkar əmələ dəstəyinin dayandırılması üçün məsələyə təcili müdaxilə olunmasını xahiş ediblər.

# Ordu quruculuğumuzun davamlı olması qürurverici amildir



*Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, ruh yüksəkliyinə malik olan Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad etməklə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi müqəddəs vəzifənin icrasına tam hazırdır. Buna hər kəs əmin ola bilər. Ordumuz bu əminliyi, inamı doğrultmaq qüdrətinə malikdir.*

Son bir neçə ildə ordu quruculuğunda görülən işlərə nəzər salsaq, təhlillər aparsaq, görərik ki, yola saldığımız illər bizim üçün səmərəli, nailiyyətlərlə dolu və ordu quruculuğu prosesinə başucalığı gətirən dövr olub.

Ordu quruculuğunun bizim üçün ən başlıca və prioritet məsələ olduğunu vurğulayan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırığına əsasən, kompleks şəkildə aparılan islahatlar Silahlı Qüvvələrdə bütün istiqamətləri əhatə edə bilib. Bunun nəticəsidir ki, ordumuz aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməyə nail ola bilib və güclü ordularla bir cərgədə dayanmağa layiq olduğunu sübut edib.

Ali Baş Komandanın atdığı uğurlu addımlar sayəsində Azərbaycanın iqtisadi qüdrətlənməsi ölkəmizdə bütün sahələrdə inkişafa təkan verdiyi kimi, hərbi büdcəmizin də sürətlə yüksəlməsinə, qısa zaman kəsiyində 20 dəfədən çox artmaqla üç milyardı ötməsinə səbəb oldu. Bu istiqamətdə artım tendensiyasının ölkəmizdə davamlı olması da qürurvericidir.

Son bir neçə il ərzində ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu proses mərhələlərlə, planlı surətdə həyata keçirilməkdə davam edir. Odur ki, bu gün ordumuzun qüdrətinə şübhə etməyə, ağız büzməyə cürət edənlərə, köhnəlmiş hərbi texnika alınır deməyə ürəyi gələnlərə istifadəmizdə olan bəzi döyüş texnikalarını sadalamaqla tutarlı cavab vermək istərdim:

"RM 7085", "Qasırğa", "Ekstra", "Polonez", "LORA" və s. kimi raket silahlanma sistemləri, 2 S31 "Vena", "DANA", "TOC-1A Solntsepyok", "MSTA-S", 2A 36 "Geasint" və s. kimi artilleriya və minaatan sistemləri, "SPAYK" və "XRİZANTEMA-S" kimi tank əleyhinə idarəolunan raket kompleksləri, T-90S tankları, BMP-3, ZTR 82 A və s. kimi zirehli-döyüş texnikaları, "BELL-412", "MD-530" və "Mİ-35" helikopterləri, "AEROSTAR", "HERON", "ORBİTER" və başqa PUA-lar və s. kimi aviasiya döyüş texnikası, dünyada tanınmış müxtəlif qabaqcıl dövlətlərin istehsalı olan müxtəlif hava hücumundan müdafiə üçün silahlanma sistemləri, rabitə və radioelektron mübarizə vasitələri... Daha nələr, nələr! Odur ki, bu gün ordumuzun qüdrətindən şübhə ilə danışmaq insafsızlıq, ədalətsizlik, diletantlıq, ən əsası isə düşmənçilik, qərəzçilik əlamətindən başqa bir şey deyildir.

Azərbaycan Ordusunda aparılan islahatlar, döyüş qabiliyyətinin yüksəlməsi üçün qəbul edilən qərarların nə dərəcədə düzgün, əhəmiyyətli, uğurlu olmasına 2016-cı ilin aprel ayında həyata keçirilən əks-həmlə əməliyyatının və Günnüt əməliyyatının qələbəmizlə başa çatması buna ən dolğun əyani sübut, bariz nümunədir. Heç kimdə şübhə olmasın ki, Ali Baş Komandanın əmri ilə ordumuz hələ dəfələrlə qələbələr əldə etməklə ötən zamandan, keçirilən təlimməşqlərdən, ayrılan vəsaitlərdən nə dərəcədə səmərəli bəhrələndiyini sübut edəcək.

Aprel döyüşlərində 1000-ə yaxın düşmən öldürüldü və yaralandı, düşmənin 30-dək tank və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, müdafiəsi yarıldı, o geri çəkilməyə məcbur oldu və torpaqlarımızın bir qismi azad edildi.



2016-cı ilin aprelində və 2018-ci ilin mayında xalqımıza qələbə sevincini yaşadan ordumuza ən böyük qiyməti və dəyəri "Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir" sözləri ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev verib. Verilən bu qiymətdən qürurlanan Azərbaycan hərbçiləri, eyni zamanda, ona etimad göstərildiyini, üzərlərinə ərazi bütövlüyümüzün təmin edilməsi kimi müqəddəs vəzifə düşdüyünü də bir anlıq unutmurlar. Bu etimadı, bu vəzifənin müqəddəsliyini və nə qədər şərəfli olduğunu düzgün dərk edən şəxsi heyət genişmiqyaslı təlimlərdə, çöl çıxışlarında günbəgün döyüş qabiliyyətini yüksəldərək, mənəvi-psixoloji hazırlığını daim artırmaqla, peşəkarlığını təkmilləşdirərək Vətən qarşısında borcunu şərəflə yerinə yetirməkdə davam edir. Dövlətimizin qayğısından, xalqımızın sevgisindən ruhlanan ordumuz torpaqlarımızı inamla qoruyur və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi naminə daha da əzmlə öz döyüş qabiliyyətini artırmaqda davam edir.

Yuxarıda qeyd edilən tapşırıqların yerinə yetirilməsində Hərbi Hava Qüvvələrinin böyük rolu da danılmazdır. Bunu nəzərə alaraq, Ali Baş Komandanın tapşırığına əsasən, ordumuzun daima modernləşdirilməsi çərçivəsində Hərbi Hava Qüvvələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi, modernizasiyası, yenilənməsi və dünya standartları səviyyəsinə çatdırılması, hava hücumundan müdafiə sisteminin eşelonlaşdırılması istiqamətində də böyük işlər görülüb və Müdafiə Nazirliyinin fəaliyyət planına əsasən bu proses bu gün də məqsədyönlü şəkildə, ölkəmizin yerləşdiyi regionun xüsusiyyətləri nəzərə alınmaqla davam edir.

Ən müasir və yüksək texnologiyalar əsasında yaradılmış avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilən yeni Qırıcı Aviasiya Bazası və Radiolokasiya hərbi hissəsinin Birləşmiş Komanda Məntəqəsinin istifadəyə verilməsi, respublikamızın müxtəlif bölgələrində hava hücumundan müdafiə bölmələrinin yeni məntəqələrinin yaradılması, "İldırım" və modernləşdirilmiş S-125, eləcə də digər zenit-raket komplekslərindən döyüş atışlarının icrası bu istiqamətdə görülən işlərin cüzi bir qismi, həyata keçirilən tədbirlərin müəyyən bir parçasıdır. Ümumi proseslərə nəzər saldıqda isə əminliklə deyə bilərik ki, müasir texnoloji avadanlıqla təchiz edilən Hərbi Hava Qüvvələrimiz özünəməxsus bütün komponentlərə - döyüş növbətçiliyinin yüksək səviyyədə aparılması, qüvvələrin qısa müddətdə döyüşün hazır vəziyyətə gətirilməsi, həmçinin istənilən iqlim, hava şəraitində və sutka



ərzində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanması, təhlili, qərarların dəqiq, vaxtında qəbulu, bütün hədəflərin dərhal, dəqiqliklə məhv edilməsi və aviasiya qüvvələrinin bütün döyüş tapşırıqlarının səmərəli icrasını təmin etmək imkanına tam malikdir. Bu gün ordumuzun üzərində çalışdığı ən mühüm istiqamətlərdən biri də müasir döyüş taktikasına uyğun olaraq, düşmənlə birbaşa təmasa girmədən onun qüvvə və vasitələrini məhv etmək, hərbi strukturlarını iflic vəziyyətinə salmaqla onun canlı qüvvəsinin maksimum demoralizə olmasına nail olmaqdır. Tam səmimiyyətlə deyə bilərik ki, bu istiqamətdə böyük uğurlara artıq imza atmışıq.

Son illər Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə uğurla fəaliyyət göstərir və ordumuzu keyfiyyətli məhsullarla təmin edir.

İki nazirlik arasında imzalanan anlaşma memorandumuna əsasən, bölmələrimiz yerli istehsal olan "Zərbə" və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatları ilə təmin ediləcək, həmçinin yüzlərlə yeni növ kamikadze tipli PUA hərbi hissələrimizin istismarına veriləcəkdir.

Heç kimə sirr deyil ki, Azərbaycanın hərbi sənaye zavodlarında bütün növ patronlar, tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz uçuş aparatları da daxil olmaqla, 1000-dən artıq çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir.

Bütün bunlarla yanaşı, digər dost ölkələrin hərbi sənaye imkanları nəzərə alınmaqla müxtəlif istiqamətlərdə, müxtəlif çeşiddə hərbi təyinatlı məhsulların əldə olunması, modernizasiyası da nəzərdə tutulur və bu proses davamlı xarakter daşımaqdadır. Düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla ordumuzun silahlanmasına inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli, yüksək dəqiqliyə malik, geniş ərazidə məhvetmə gücündə olan döyüş texnikaları, eləcə də digər hərbi təyinatlı məhsulların daxil edilməsi planauyğun təşkil ediləcəkdir.

Sonda onu da qeyd etmək istərdim ki, bütün bunlar yalnız bir məqsədə xidmət edir - Vətən torpaqlarını işğaldan azad etmək. Sadaladığımız bütün bu imkanlara malik olan ordumuz düşmən üzərində qələbə qazanmaqda israrlıdır, əzmlidir və buna qadirdir. Bunu Aprel döyüşlərində darmadağın edilən düşmən anlamışdır və o bundan nəticə çıxarmaq, torpaqlarımızı sülh yolu ilə tərk etmək məcburiyyətindədir. Aprel döyüşlərini unutmamaqla, növbəti döyüşlərdə onları nələrin gözlədiyini düşmənin artıq anlamaq və təsəvvür etməyinin vaxtı çoxdan gəlib.

Heç şübhəsiz, işğalla heç vaxt barışmayacaq ölkəmizdə ordu quruculuğu Ali Baş Komandanın tapşırığına əsasən növbəti illərdə də prioritet sahələrdən biri olaraq qalacaqdır. Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, ruh yüksəkliyinə malik olan Azərbaycan Ordusu işğal altında olan torpaqları azad etməklə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi müqəddəs vəzifənin icrasına tam hazırdır. Buna hər kəs əmin ola bilər. Ordumuz bu əminliyi, inamı doğrultmaq qüdrətinə malikdir.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Müstəqillik tariximizin mühüm mərhələsi.**
**2. 15 İyun Milli Qurtuluş Günüdür.**

**Mövzu:** Müstəqillik tariximizin mühüm mərhələsi - 15 İyun Milli Qurtuluş Günüdür.

*Müstəqillik tariximizin mühüm mərhələsi*

Azərbaycanda milli azadlıq hərəkatı hələ Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sovet rejiminin ilk günlərindən başlamışdı. XX əsrin 60-70-ci illərində Azərbaycanda yayılan dissidentlər hərəkatı da milli müstəqillik ideyalarının yayılmasına xidmət etmişdi. Sosializm ideyalarını iflasdan və Sovet Sosialist Respublikaları İttifaqını (SSRİ) dağılmaqdan xilas etmək məqsədilə 80-ci illərin ortalarında irəli sürülən "yenidənqurma" siyasəti Azərbaycanda da demokratiya və suverenlik uğrunda mübarizəyə yeni nəfəs verdi. Azərbaycanda da demokratiya və suverenlik uğrunda kütləvi hərəkat başladı. Demokratiya və aşkarlıq şəraitindən məharətlə istifadə edən ermənilərin Azərbaycanın əzəli torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq iştahaları yenidən artdı. 1987-ci il ərzində "Böyük Ermənistan" xəritəsi kiçik formatda Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) geniş yayılmağa başladı. Qısa müddət ərzində 230 mindən çox azərbaycanlı deportasiyaya məruz qaldı. Fevral-mart aylarında Böyük Qarakilsə (Quqark) rayonunda 100 nəfər azərbaycanlı qətlə yetirildi. 1988-ci il fevralın 20-də DQMV-nin xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası Azərbaycanın əzəli tərkib hissəsi olan "Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Sovet Sosialist Respublikasının tərkibindən Ermənistan Sovet Sosialist Respublikasının tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırması barədə" qərar qəbul edildi. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağdan da azərbaycanlıların təmizlənməsinə başlanıldı. 1988-ci il fevralın 24-də Əsgəranda iki azərbaycanlı gənc qətlə yetirildi, fevralın 28-də faciəli Sumqayıt hadisəsi törədildi. Ermənilər tərəfindən baş vermiş hadisələrdə azərbaycanlıların təqsirkar olduğu məqsədli şəkildə dünyaya çatdırıldı. Bununla onlar antiazərbaycan, antitürk ictimai fikrin formalaşmasına nail oldular. Bütün bunlar Azərbaycanda suverenlik və ərazi bütövlüyü uğrunda kütləvi xalq hərəkatının başlanmasına səbəb oldu. 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz mitinqi keçirildi. Kütlələrin etiraz mitinqlərindən ən əzəmətlisi 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında oldu. Bu, Azərbaycanın müasir tarixinə Milli Dirçəliş hadisəsi kimi daxil oldu.

1990-cı il yanvarın 13-də Bakıda bir nəfər erməni tərəfindən iki azərbaycanlının qətlə yetirilməsi vəziyyəti daha da gərginləşdirdi. 1990-cı il yanvarın 15-də Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ) Ali Sovetinin Rəyasət Heyəti "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə" fərman verdi. Bakı və ətraf rayonlara əlavə hərbi qüvvələr gətirildi. Qüvvələrin şəhərə daxil olmasına yol verməməyə çalışan bir qrup şəhər sakinləri simvolik maneələr yaratmağa səy göstərdilər. Lakin "şanlı" sovet hərbi hissələri mərkəzin azərbaycanlılara divan tutmaq qərarını yerinə yetirməyə başladılar. Əməliyyata bilavasitə o zamankı SSRİ Müdafiə naziri D.Yazov başçılıq edirdi. Yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-si saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Lakin o, qırğından sonra elan olunmuşdu. Əhaliyə hadisələr barədə məlumat verilməsin deyə, yanvarın 19-u axşam respublika dövlət televiziyasının enerji bloku partladıldı. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xüsusi təyinatlı hissələrdən ibarət "şanlı" Sovet ordusu Bakı üzərinə hücuma keçdi. Şəhərdə qanlı qırğın törədildi. Bakıda və digər rayonlarda dinc vətəndaşlar qətlə yetirildi. Onların arasında çoxlu qocalar, qadınlar və uşaqlar var idi. "Qanlı Yanvar"a etiraz olaraq respublikada 40 günlük ümummilli matəm tətili keçirildi. Bu faciədən xəbər tutan ümummilli lider Heydər Əliyev ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiyanın Bakıda qanlı qırğın törətdiyini dünyaya bəyan etdi, onu "təcavüz və xəyanət" kimi qiymətləndirdi.

Moskvada 1991-ci il 19-21 avqust hadisələrindən sonra Azərbaycanda da ictimai-siyasi vəziyyət daha da kəskinləşdi. Suverenlik, müstəqillik və azadlıq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. 1991-ci ilin sentyabrında Dağlıq Qarabağ özünü "müstəqil respublika" elan etmişdi. Ermənilər Dağlıq Qarabağdakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdilər. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir şəraitdə xalqın tələbi ilə Ali Sovetin 1991-ci il oktyabrın 18-də toplanış sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi rəsmən bərpa olundu.

Müstəqilliyimizin ilk illərində ictimai-siyasi vəziyyət gərgin olmaqda qalırdı. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsdləri davam edir, iqtidar-müxalifət qarşıdurması kəskinləşir, iqtisadiyyat isə tənəzzül edirdi. Bunlar da siyasi duruma çox mənfi təsir göstərmiş respublikada vəziyyəti vətəndaş müharibəsi həddinə çatdırmışdı. Belə şəraitdə xalqını, Vətənini sevən ziyalıların nəzəri, diqqəti 1990-cı ilin iyulunda Moskvadan Azərbaycana gələrək Naxçıvanda məskunlaşan və xalqın təkidi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilən təcrübəli siyasətçi, ümummilli lider Heydər Əliyevə çevrilmişdi. Xalq çıxış yolunu onun respublika rəhbərliyinə gəlməsində görürdü. 1992-ci il oktyabrın 16-da ziyalılardan ibarət 91 nəfərin "Səs" qəzetində ümummilli lider Heydər Əliyevə yenidən böyük siyasətə qayıtması xahişi ilə müraciəti dərc edildi. 1992-ci il noyabrın 21-də Naxçıvanda ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı.

*15 İyun Milli Qurtuluş Günüdür*

Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdir. İctimai həyatın bütün sahələrində hərc-mərclik baş alıb gedirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar Gəncəyə yola düşən dövlət nümayəndələrinin girov götürülməsi ilə nəticələnmişdi. Qiyamçı hərbi hissənin rəhbərliyi Baş nazir və Milli Məclis sədrinin, sonra isə Prezidentin istefasını tələb edirdi. Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük siyasətçi, ümummilli lider Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başladı. Ümummilli Liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım oldu. Bundan bir neçə gün sonra isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsinə razılıq verdi. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Ali Sovetin sədri seçildi və həmin gün tariximizə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu.

1993-cü il iyunun 18-də gecə xəbər vermədən Prezident Əbülfəz Elçibəy (Əliyev) paytaxtı tərk edərək respublikanı rəhbərsiz qoydu, anadan olduğu Ordubad rayonunun Kələki kəndinə getdi. İyunun 23-də Milli Məclis prezident səlahiyyətlərini də Ali Sovetin sədri ümummilli lider Heydər Əliyevə həvalə etdi. 1993-cü il oktyabrın 3-də ümummilli lider Heydər Əliyev ümumxalq seçkisi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da müstəqilliyimizin ulu öndər Heydər Əliyev mərhələsi başlandı.

Ulu öndər Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla və planlı surətdə həyata keçirməyə başladı. 1993-cü il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Şurası yaradıldı. 1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Ulu Öndər bu tarixi müraciətindən sonrakı dövr ordu quruculuğunda əsas mərhələnin başlanğıcıdır.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri son bir neçə ay ərzində ilk dəfə olaraq Azərbaycan Ordusunun hissələrinin güclü müqavimətinə rast gələrək uğursuzluğa düçar oldu. 1993-cü il dekabrın 28-də Ermənistan qoşunlarının Goranboy, Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bu istiqamətlərdə xeyli canlı qüvvə və texnikası məhv edilən düşmən geri çəkilməyə məcbur oldu. Füzuli-Beyləqan istiqamətində döyüşçülərimiz 40 km-ə qədər irəliləyərək düşməni darmadağın etdilər. Həmin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması onlara ruh yüksəkliyi verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu.

1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə Əsrin müqaviləsi adlandırılan ilk neft müqavilələri imzalandı. İndi dünyanın 14 dövlətindən olan 30-dan çox şirkətlə 21 neft müqaviləsi imzalanaraq Azərbaycan iqtisadiyyatına 10 milyard dollar investisiya qoyulub.

1994-cü ilin oktyabrında, o zaman baş nazir olan Surət Hüseynovun başçılığı ilə dövlət çevrilişi etmək cəhdi xalqın köməyi ilə aradan qaldırıldı. Eyni zamanda, Əlikram Hümbətovun "Talış-Muğan" respublikası yaratmaq və 1995-ci ilin martında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis dəstələrinə başçılıq edən Rövşən Cavadov və onun qardaşı prokuror Mahir Cavadov tərəfindən zorakı hökumət dəyişikliyi cəhdlərinin qarşısı alındı. Azərbaycanda sabitlik bərqərar olundu.

Möhkəm sosial-siyasi sabitliyin və qanunçuluğun bərqərar olması müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinə imkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bununla respublikanın inkişaf tarixində - demokratik, hüquqi dövlət qurmaq, ölkənin dinamik inkişafını təmin etmək prosesi başlandı. Konstitusiyaya əsasən respublikada qanunverici, icraedici və məhkəmə hakimiyyəti yaradıldı. Parlament seçkiləri yolu ilə müxtəlif partiyaları təmsil edən 125 deputatdan ibarət Milli Məclis formalaşdırıldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ümummilli Liderin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Ümummilli lider Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərərək bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanıb.

Ümummilli lider Heydər Əliyev bizim dahi müasirimiz olaraq hər bir azərbaycanlı üçün qürur mənbəyimiz və taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz ulu öndər Heydər Əliyev yaradıb.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti sayəsində Azərbaycan Ordusu müasir texnika və silahlarla təchiz olundu, zabit kadrları ilə komplektləşdirildi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olundu. Bu gün səmərəli hərbi təhsil sistemi yaradılıb, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilib.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş ümummilli lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycanın hələ neçə-neçə nəsli ulu öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı və xalqımızın rifahı naminə faydalanacaq.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# UNEC-çilər Azərbaycan Ordusuna onlayn dəstək nümayiş etdiriblər

*Qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq mayın 18-dən başlanan Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri uğurla davam etdirilir.*



Həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda-idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılaraq təlimlərin planına əsasən qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirirlər.

Təlimlər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Müdafiə Nazirliyinin rəhbər heyətinin bilavasitə iştirakı ilə keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanları ilə qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılır.

Təlimlərə cəlb edilən şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi yüksək səviyyədədir və onlar ölkə rəhbərliyinin, xalqımızın etimadını doğruldurlar.

Ötən ildən başlayaraq "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına qoşulan ölkəmizin aparıcı və potensial gücə malik ali məktəblərindən biri olan Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 20 min nəfərlik kollektivi yenə də bu vətənpərvər təşəbbüslərini davam etdirir.

Koronavirus epidemiyası ilə bağlı karantin rejiminin tələblərinə uyğun olaraq bu dəfə UNEC-çilər onlayn vasitəsilə Azərbaycan Ordusuna dəstək nümayiş etdiriblər.

UNEC-in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnarə Ömərova Universitetin rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradov başda olmaqla professor-müəllim və tələbə heyətinin adından təlim iştirakçılarını salamlayaraq xalqımızı sevindirən, düşmənlərimizi isə təşvişə salan genişmiqyaslı təlimləri diqqətlə izlədiklərini və bundan böyük qürur duyduqlarını bildirib.

E.Ömərova dünyanın ən güclü 50 dövlətinin orduları sıralarında yer alan Azərbaycan Ordusuna güvəndiklərini qeyd edərək deyib: "Ordumuzun hərbi potensialının artması nəticəsində tariximizə Aprel döyüşlərində olduğu kimi hələ neçə-neçə möhtəşəm zəfər yazacağına, işğal altında olan tarixi, əzəli torpaqlarımızın azad ediləcəyinə, respublikamızın ərazi bütövlüyünün bərpa olunacağına əminik. Çünki Azərbaycanımızın istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan güclü ordusu var".

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı cəbhəboyu zonada keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin gedişatı, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi, cəlb olunan heyətlərin hazırlığı, bölmələrin atəş və manevr imkanları barədə ətraflı məlumat verərək UNEC-in bu təşəbbüsünün də Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən rəğbətlə qarşılandığını bildirib.

"SABAH" Mərkəzinin dekanı, dosent Aida Quliyeva, prorektor, hüquq üzrə fəlsəfə doktoru, dosent, Qarabağ müharibəsinin veteranı Mikayıl Zeynalov, kafedra müdirləri - professorlar Arif Şəkərəliyev, Afət Abbasova, Rövnəq Rzayev, UNEC-in Zaqatala filialının direktoru, professor Orucəli Rzayev, direktor müavini Həqiqət Kərimova, UNEC Qadınlar Şurasının sədri, dosent Təranə Kərimova, Biznes və menecment fakültəsinin dekanı, dosent Mirağa Əhmədov, Distant, qiyabi və əlavə təhsil mərkəzinin direktoru, dosent Səbuhi Tanrıverdiyev, tələbələrdən Aslan Əzimzadə, Yusif Cəfərzadə və başqaları Azərbaycan əsgərinə səmimi arzularını çatdıraraq Vətən naminə müqəddəs xidmətdə onlara uğurlar arzulayıblar.

Azərbaycanın Milli Qəhrəmanı, Aprel döyüşlərinin iştirakçısı polkovnik Şükür Həmidov UNEC-çilərə növbəti nəcib təşəbbüsə görə bütün təlim iştirakçıları adından minnətdarlıq edərək deyib: "Ordumuz nəinki tank, zirehli texnika, müxtəlif çaplı raket-artilleriya qurğuları, reaktiv yaylım atəş sistemləri, ordu və cəbhə aviasiya vasitələri, kəşfiyyat və zərbə tipli pilotsuz uçuş aparatları, eləcə də qədirbilən xalqımızın sevgisi, məhəbbəti ilə silahlanıb. Təlim meydanlarında bizə ruh, güc-qüvvət verən məhz bu sevgidir. Bu sevgi ilə də biz müqəddəs döyüşlərə atılacaq, xalqımıza böyük qələbənin sevincini də yaşadacağıq".

Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani müəllim və tələbələrin suallarını cavablandırıb və onun təqdimatı ilə təlim iştirakçılarının bir qrupu UNEC-çilərlə onlayn əlaqəyə qoşulublar.

Tələbə Yaradıcılıq Mərkəzinin üzvü Aslan Əzimzadənin ifa etdiyi "Hər əmrinə hazırıq, cənab Ali Baş Komandan!" marşı ilə onlayn görüş başa çatıb.

UNEC-in Azərbaycan Ordusuna mənəvi dəstək layihəsi çərçivəsində tədbirlər davam edir.

## Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu Şuşada təşkil olunan "andiçmə" şousuna qarşı etiraz bəyanatı yayıb

*Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşa şəhərində torpaqlarımızın iyirmi faizini işğal edən Ermənistanın təşkil etdiyi qondarma "andiçmə" şousu indiyə qədər bölgədə məlum münaqişənin həlli üçün cəhdlər edən beynəlxalq təşkilatların fəaliyyətinə qarşı çıxmaqdır.*




AZƏRTAC xəbər verir ki, bu fikir Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun bəyanatında əksini tapıb. Fondun sədri professor Aygün Əttarın imzası ilə yayılan mətndə diqqətə çatdırılır ki, BMT, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, TÜRKPA kimi mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımış, o cümlədən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu qərar və qətnamələr əsasında təsdiq etmişlər.

Diqqətə çatdırılır ki, təcavüzkar Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsində saxta "seçkilər" keçirməklə bölgədə gərginlik yaratmağı hədəfləyib. Azərbaycanın işğal altındakı ərazilərində qanunsuz mövcudluğuna və fəaliyyətinə görə təcavüzkar Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən qınanılmalı və buna son qoyulmalıdır.

### Nümunəvi xidmət

## "Döyüşlərə, illərin həsrətinə son qoyacağımız günə az qalıb"



Bu gün millətimizin mövcudluğunda, dövlətimizin tərəqqisində, ordumuzun dünyada nüfuz qazanmasında onun nümunəvi xidməti ilə seçilən sağlam gəncliyinin olması mühüm önəm daşıyır. Nümunəvi xidməti ilə seçilən gənclər hər zaman ordumuzun aparıcı qüvvəsi kimi çıxış edir, eyni zamanda, ordu həyatının tələblərinə operativ yanaşmaqla onun inkişaf prosesinin fəal iştirakçısına çevrilirlər. Belə gənclərimizdən biri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Samid Ağayevlə "N" hərbi hissəsində tanış olduq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuna ilk sualımız belə oldu. "Hərbçi olmaq istəyi sizdə nə zaman yarandı?".

"Hərbçi olmaq çox məsuliyyətli və şərəfli peşədir", - deyə çavuş söhbətə başladı. - Vətənimizin dar günündə onun müdafiəsində dayanmaq istəyi məni bu peşənin nümayəndəsi elədi. Həm də minlərlə soydaşımızın doğma el-obalarına geri qayıtmalarına yardımçı olmaqdan, mənfur düşmənin xalqımızın başına açdığı insanlığa sığmayan hərəkətlərinin qisasını almaqdan önəmli nə ola bilər? Müharibə bitməyib. Böyük Qələbə uğrunda gedəcək döyüşlər başlayanda hərtərəfli hazırlıqlı döyüşçü olmaq istəyirdim. Müddətli həqiqi hərbi xidmətimi bitirdikdən sonra ordu sıralarında qalmaq istəyimi komandirlərimə bildirdim. Onlar da məqsədimə çatmağım üçün əllərindən gələni əsirgəmədilər. Şükürlər olsun ki, arzuma çatmışam. Artıq Vətənimin əsgəriyəm. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısıyam. Çox sevinirəm ki, az da olsa qazanılan qələbədə mənim də payım var.

Müsahibim danışdıqca qisas hissi ilə alışıb yandığını görməmək mümkün deyildi. "Əynimizə geyindiyimiz formanın haqqını verməliyik. Bunun üçün mütəmadi olaraq hərbi biliklərimizi, vərdişlərimizi təkmilləşdiririk. Biz komandirlər tabeliyimizdə xidmət edənlərə nümunə olmalıyıq. Bunun üçün yorğunluğun nə olduğunu bilməməliyik. Danılmazdır ki, "Təlimdə tər tökənin, döyüşdə qanı tökülməz". Keçirilən genişmiqyaslı təlimlər də nə qədər hazırlıqlı olduğumuzu göstərdi. Ancaq bununla kifayətlənmirik. Çalışırıq ki, xidmətimizi düzgün təşkil edək, hər zaman torpaqlarımızın keşiyində dayanaraq qəddar düşməndən qoruyaq. Hər bir Azərbaycan əsgərinin, gizirinin və zabitinin içindən gələn məsuliyyət hissi, vətəndaşlıq borcu sayəsində başqa cür xidmət etməyə haqqımız da çatmır".

Azərbaycan əsgərinin ölkəmizdə hökm sürən sülh və əmin-amanlıq təminatçısı olduğunu deyən Samid Ağayev bildirdi ki, hər birimizi yalnız bir amal birləşdirir - işğal altında olan torpaqlarımızı düşməndən azad etmək. "İnanıram ki, döyüşlərə, illərin həsrətinə son qoyacağımız günə az qalıb. O vaxta qədər çalışmalıyıq ki, döyüş hazırlığımız yüksək səviyyədə olsun. Bunun üçün günün nizam qaydasına uyğun olaraq məşğələlərdə iştirak etməli, qida rasionumuzu və fiziki hazırlığımızı nəzarət altında saxlamalıyıq. Hərbi hissəmizdə hər cür şərait yaradılıb. Bizə yalnız nümunəvi xidmət etmək qalır".

Vətənimizin mərd oğlu ilə sağollaşırıq. Bir daha əmin oluruq ki, güclü ordumuzun sıralarında vətənpərvər oğullar xidmət edirlər. Hər biri Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Qələbə günü - bəşəri ehtiram günü

*Böyük Vətən müharibəsi qələbəylə başa çatdı. 1945-ci ilin 9 may günü tarixə döndü. Bu tarix Səməd Vurğunun tarixi misralarında da tarixləşdi:*

Yazılsın tarixə qızıl bir xətlə,
45-ci ilin 9 may günü!..

45-ci ilin 9 mayından 75 il keçir. Bu böyük qələbəni böyük coşquyla, könül açıqlığıyla, qürurla qeyd etmək Azərbaycana ana südü kimi halaldı. Böyük Vətən müharibəsi illərində döyüşən orduya yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycandan gedirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" jurnalına müsahibəsində də qeyd etdiyi kimi, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Ancaq Bakıya qəhrəman şəhər adı verilmədi. Dünya da gördü ki, Bakıya qəhrəman şəhər adı verməli olanlar 1990-cı ilin yanvarında Bakıda qırğın törətdilər. İllər sonrası da olsa, 75 ilin o üzündə qalanların səmimiyyətlə etiraf edilməsi, Bakıya qəhrəman şəhər adı verilməsi 75 il yol gözləyən ədalətin bəşərilik naminə bərpası olmazdımı?




Azərbaycanda Böyük Vətən müharibəsində qələbənin ildönümləri həmişə xalq bayramı, xalqın bayramı kimi qeyd edilib. Ötən, ötüşən illər böyük tarixi şəxsiyyət Heydər Əliyevin bir kəlamının da tarixiliyini təsdiqlədi: "... Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır".

Ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərlə bu haqda yenə kəlmələşmək istəyirəm. Yadıma 2016-cı il mayın 8-də Cocuq Mərcanlıda, Lələtəpədə əsgərlərin əhatəsində yaşadığım duyğular düşür. Neçə gün əvvəlin qəhrəmanlarıyla kəlmələşəndə neçə on illər əvvəl Böyük Vətən müharibəsi veteranlarından eşitdiklərimi, o kəlmələrin hər birini yaşadan qüruru xatırlamışdım. "Biz veteranların hamısı yaşıddı, hamısı 45-in 9 mayında doğulanlardı. Həlak olanlar bizim ömrümüzdə yaşayır". Bu xatırlama əsgərləri duyğulandırmışdı. Baxışları Lələtəpənin o üzündən üzülməyən gizir Tahir Misirxanov qətiyyətlə demişdi:

- Biz torpaqlarımızı işğaldan azad edəcəyik. Qələbə hansı ayın hansı günündə qazanılsa, döyüşənlərin hamısı deyəcək ki, biz Böyük Qələbənin yaşıdlarıyıq. Şəhidlər qazilərin ömründə yaşadılacaq...

Aprel döyüşlərinin iştirakçıları 9 may gününün səhərini bu ovqatla qarşılayacaqdılar. Bu ovqat döyüş əzminin, qələbə ruhunun ovqatıydı. O gün könlümdən Lələtəpənin yamaclarında açan çiçəklərdən bircə-bircə dərmək, şəhidlərin məzarına sərmək keçmişdi. Yüksək rütbəli zabitlərdən biri qürurla Tahir Misirxanova baxmışdı, "Gizir Misirxanov düşmənin neçə-neçə tankını vurdu, o da, digər qəhrəmanlar da Ali Baş Komandanın döyüş əmrini qələbəylə sonlandıracaqlar. Bu gün 9 mayla 5 aprelin qələbə ovqatını qoşa yaşayırıq. Yaxın vaxtlarda 9 may hələlik naməlum olan məlum bir günlə qoşa yaşadılacaq. O günə Böyük Qələbə günü deyəcəyik", - demişdi. Əsgərlərin baxışlarında gördüyüm döyüş əzmi, qələbə ruhu könlümü telləndirmişdi. Lələtəpədən xırdaca qanadlı meh əsmişdi. Günün bu vaxtında əsən, əsə-əsə də harasa tələsən bu mehin pıçıltısını duymaq üçün əsgərlərin avtomatın qundağını sıxan barmaqlarını görmək kifayətmiş...

Ön xətdə, səngərdə Vətən kəlməsi ahənrüba kimi bütün mətləbləri özünə çəkir; Səməd Vurğun demişkən, bütün mətləblərin mübtədası Vətən olur. Eşitdiyimiz fikirləri Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığının səviyyəsini göstərən bir çalar bilirik. Martın sonlarında da ön xətdə, səngərdə belə bir ovqat yaşadım. Əsgərlərdən biri demişdi ki, Vətəni ana kimi sevməyən oğula oğul demək günahdı, Ana, Vətən kəlmələri ömrümüzün çırağıdı, uğurumuzun bayrağıdı. Bu gərəkli, müqəddəs fikri düşüncələrimə hopdurmuşdum...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Natsionalnaya oborona" jurnalına müsahibəsində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı suala cavab olaraq deyib: "...Münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir". Ön xətdə, səngərlərdə əsgərlərdən eşitdiklərimizi xatırlayıram və bir daha əmin oluram ki, bu kəlam işğalçı dövlətə xəbərdarlıqdır: münaqişə danışıqlar yoluyla həll olunmasa, onu Ali Baş Komandanın döyüş əmriylə Azərbaycan Ordusu həll edəcək.

Qələbə təntənədir. Böyük Qələbənin təntənəsi də böyük olur. Bu təntənə haqqında ön xətdə, səngərdə eşitdiklərini düşüncələrinin nizamlayıcısı bilirsən...

9 may Böyük Vətən müharibəsində həlak olmuş 300 min azərbaycanlının da ruhuna gözaydınlığı günüdü. Bu ehtiram bəşəri ehtiramdı. Bəşəri ehtiramlar ön xətdə, səngərlərdə daha möhtəşəmliklə duyulur...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## Moskva ətrafında hərbi helikopter qəzaya uğrayıb, üç nəfər həlak olub



Rusiya kosmik-hava qüvvələrinə məxsus hərbi helikopterin Moskva ətrafında sərt eniş etməsi nəticəsində üç nəfərdən ibarət ekipaj həlak olub.

Rusiya KİV-ləri xəbər verir ki, axtarış qrupu hadisə yerində hər iki qara qutunu aşkarlayıb. Qara qutuların qənaətbəxş vəziyyətdə olduğu bildirilir.

Helikopter mayın 19-da axşam saatlarında Klin şəhərindən 20 kilometr məsafədə təlim-məşq uçuşu yerinə yetirərkən qəzaya uğrayıb. İlkin məlumata görə, qəzaya texniki nasazlıq səbəb olub.

## İranda terrorçu qruplaşmanın üzvləri məhv edilib



İran İslam İnqilabı Keşikçiləri Korpusu (Sepah) ölkənin Kürdüstan vilayətində xüsusi əməliyyat keçirərək terror qruplaşmasını zərərsizləşdirib.

Sepahın açıqlamasında xəbər verilir ki, əməliyyat nəticəsində 2 terrorçu məhv edilib, 4-ü yaralanıb, 16-ı isə tutulub. Tutulan şəxslərin evlərində və iş yerlərində aparılan axtarış zamanı silah-sursat aşkar edilərək götürülüb.

Sepahın açıqlamasında bildirilir ki, terror qrupunun bəzi üzvləri xarici qüvvələr tərəfindən diversiya və terror aktları törətmək məqsədilə İrana göndərilib.

Qeyd edək ki, ötən ayda da İranın Kürdüstan vilayətində xüsusi əməliyyat keçirilib və nəticədə Sepahın 1 nəfər əsgəri həlak olub.

## Ermənistanda avtomobildə baş verən yanğın zamanı bir hərbçi ölüb, üçü xəsarət alıb



Ermənistanın Eçmiədzin Zvartnots rayonunda avtomobildə baş vermiş yanğın zamanı ölən və ağır yaralananlar Vazqen Sarkisyan adına hərbi universitetin zabitləridir.

Ermənistan KİV-ləri xəbər verir ki, Eçmiədzindəki "Bişaryan" mebel salonu yaxınlığında "Mazda" markalı avtomobildə yanğın baş verib. Nəticədə bir nəfər ölüb, üç nəfər xəsarət alıb. Ölən şəxs - 57 yaşlı polkovnik-leytenant Hovik Kosakyan Müdafiə Nazirliyinin Vazgen Sarkisyan hərbi universitetində artilleriya fakültəsinin baş müəllimi, yaralılar isə həmin universitetin müəllimləri 58 yaşlı polkovnik-leytenant Aşot Şekikyan, ehtiyatda olan polkovnik 57 yaşlı Pavel Topçyan və 36 yaşlı Qevorq Harutyunyandır.

Yanğın söndürüldükdən sonra polkovnik-leytenant Hovik Kosakyanın yanmış cəsədi avtomobildən tapılıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# Glock-17 tapançası



"Glock GmbH" Avstriyanın silah istehsal edən şirkətidir. Onun əsası 1963-cü ildə Doyç Baqramedə Qastom Qlok tərəfindən qoyulub. Qaston Qlokun ixtira etdiyi ilk Glock-17 (Qlok-17) tapançası konkurs zamanı uğur əldə etdikdən sonra seriyalarla 1980-ci ildən istehsal edilməyə başlayıb. 1982-ci ildən indiyə kimi bu silah dünyanın 30-dan çox ölkəsinin silahlanmasında yer alır. Glock-17 çox da böyük olmayan, çəkisinə və sadəliyinə görə seçilən və özütəchiz olunan tapançadır. Glock-17 maqazini də daxil olmaqla, 33 detaldan ibarətdir. Silahın çərçivəsi tam olaraq termo və zərbəyə davamlı polimerdən hazırlanıb. Bununla onun çəkisinin 80 faizi metal detallardan (lülə, çaxmaq prujindən və s.) ibarətdir. Metal detallar ətraf mühitdə -40 dərəcədən +200 $^0$S temperatura davamlıdır. Onun inşası zamanı modernləşdirilmiş Kolt-Braununq sistemindən istifadə edilib. Tapançanın bir çox modifikasiyaları da mövcuddur. Silahın gülləsiz çəkisi 0,625 kq, təchiz olunmuş halda çəkisi isə 0,905 kiloqram təşkil edir. Glock-17 tapançasının uzunluğu 186 mm, lüləsinin uzunluğu 114 mm, eni 33 mm və hündürlüyü isə 138 millimetrdir. Silahda 9x9 mm-lik Parabellum (+P, +P+) patronlarından istifadə edilir. Kalibri isə 99 millimetrlikdir. Tapançanın gülləsinin ilkin sürəti saniyədə 350-360 metr təşkil edir. Maksimal uzaqlığı isə 50 metrə qədərdir. Maqazini standart olaraq 17, 19 və ya 33 güllə tutumunda olur. Nişangahı açıq və çıxarıla biləndir. Silah istifadədə çox



rahatdır. Əsas işləmə prinsipi "tutdun-atəş aç"dır. Avstriya ordusunda bu silah R-80 adı altında istifadə edilir.

Hazırda bu silahlar dünyanın müxtəlif ölkələrində müxtəlif adda və müxtəlif indeksli güllələrdən istifadə olunmaqla ordu sıralarında istifadə edilməkdədir (Glock-17-dən Glock-36-ya qədər növləri mövcuddur). Bundan başqa bu silah müxtəlif iqlim zonalarında da işləməyə qadirdir. Ondan ordu strukturları, hüquq-mühafizə orqanları, hərbi texnikaların şəxsi heyəti, mülki sahədə, hərbi əməliyyatlar zamanı özünümüdafiə silahı kimi istifadə edə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Kapitan Quliyev Rəşad Fikrət oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Kapitan Məmmədov Rəşad Arif oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenant Şükürov Taleh İbrahim oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 345
Nüsxə 3960